# Prezident “cəhənnəmi görmüş pilot”u mükafatlandırdı

Yazan
02.06.16 23:04



Xəbər verdiyimiz kimi, bu gün Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə bir qrup şəxsi təltif edib.

“ Qafqazinfo ” xəbər verir ki, həmin şəxslər arasında ermənilərin törətdiyi Xocalı qətliamının ilk şahidi, ukraynalı pilot Kravets Leonid Markoviç də var. Prezident Markoviçin xidmətlərini “Tərəqqi” medalı ilə dəyərləndirib.

Xatırladaq ki, Kraveç Leonid Markoviç Xocalı qətliamının ilk şahidi, jurnalistləri bu vəhşiliyin törədildiyi yerə helikopterlə aparan pilotdur. O, Gəncə də hərbi xidmətdə olub, yaşayıb və məhz 24 il əvvəl Xocalıya Gəncə dən uçub.

Qeyd edək ki, Leonid Markoviç və xanımı Alla Kravets bu ilin fevralı-Xocalı soyqırımının 24-cü ili münasibətilə Bakıya gəlmiş, şəhidlərin məzarını ziyarət etmişdi.

Markoviç səfəri çərçivəsində “Cəhənnəmi görmüş pilot” sənədli filminin təqdimatında da iştirak edib. Film  Leyla Əliyeva nın təşəbbüsü ilə “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində hazırlanıb.

Prezident həmçinin, Markoviçin Azərbaycana səfərini təşkil edən, sözügedən filmi lentə alan diaspora rəhbəri, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun (UABD) sədri Cavadov Hikmət Əlövsət oğlunu da təltif edərək “Tərəqqi” medalı verib.